## Sentyabrda Azərbaycanı rekord sayda — 20.8% daha çox qonaq ziyarət edib

2019-cu ilin sentyabr ayında ümumilikdə 280 min nəfər Azərbaycan sərhədlərini keçib ki, bu da 2018-ci ilin sentyabr ayına nisbətən 48 min və ya 20.8% çox xarici vətəndaş deməkdir. Ən yüksək artım İran və Mərkəzi Asiya ölkələrindən qeydə alınıb. İran üzrə artım 33 minlə iki dəfə, Mərkəzi Asiya ölkələri üzrə isə 88% qeydə alınıb. Gələn əcnəbilərin 6.7 min və ya 13% çoxu Gürcüstanın, 5.3 min və ya 8% çoxu Rusiyanın payına düşür. Mərkəzi Asiya ölkələrindən gələn səyahətçilər arasında Türkmənistandan gələn qonaqların sayı rekord dərəcədə artıb ki, bu da ötən il ilə müqayisədə 231.8% artım deməkdir. Cənubi Asiya ölkələri arasında Hindistandan (83.7% və ya 3 min), Yaxın Şərq ölkələri arasında isə Səudiyyə Ərəbistanından (96.1% və ya 3.8 min) gələn qonaqlar arasında kəskin artım müşahidə olunur. Yaxın Şərqdən və Cənubi Asiyadan səyahət edənlərin sayı müvafiq olaraq 7.5% və 37.6% artaraq 27.1 min və 12.1 minə çatıb. Həmişə olduğu kimi Azərbaycana səyahət edənlərin təxminən yarısını (46.3%) Rusiya (70 min; artım 8%) və Gürcüstan (58 min; artım 13%) vətəndaşları təşkil edir.

**Qrafik 1: 2019 və 2018-ci ilin sentyabr ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2019-cu ilin yanvar-sentyabr dövründə Azərbaycana gələn xarici qonaqların sayı keçən ilin eyni dövrü ilə müqayisədə 9.6% artaraq 2.4 milyona çatıb. Sentyabrda olduğu kimi gələnlərin əksəriyyətini (1.26 milyon və ya 52%) Rusiya və Gürcüstan vətəndaşları təşkil edib. Sonuncu üzrə artım 94.5 min və ya 21.7% olub. Yanvar-Sentyabr dövrü üzrə Mərkəzi və Cənubi Asiya ölkələrindən gələn turistik axında artım müşahidə olunub. Artım müvafiq olaraq 45.8% və 38% təşkil edib. Cənubi Asiya regionunun ən böyük bazarları 45.1 min nəfərlə Hindistan və 33 min nəfərlə Pakistandır. Bu ölkələrdən artım müvafiq olaraq 70.1% və 11.8% təşkil edib. Mərkəzi Asiya bölgəsindən ən çox xarici vətəndaş Türkmənistan (39 min; 98.5% artım) və Qazaxıstandan (35.6 min; 22.% artım) gəlib. Türkiyədən gələnlərin sayı 13 min və ya 5.9% artaraq 233 minə çatıb.

Yaxın Şərq və İrandan gələn səyahətçilər üzrə cüzi azalma müşahidə olunub. Belə ki, Azərbaycana müvafiq olaraq 20 və 4.9 min və ya 6.6%,  2.5% azalma ilə 291.1 min və 197.5

min nəfər səfər edib. Səudiyyə Ərəbistanı istisna olmaqla, bütün əsas Yaxın Şərq ölkələrində azalma müşahidə olunub. Səudiyyə Ərəbistanından gələnlərin sayı 42.4% artaraq 93 minə çatıb.

Nümayəndəliklərin yaradıldığı ölkələrdən (Çin, Hindistan, Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı, BƏƏ) 2019-cu ilin doqquz ayı ərzində 950.7 min səyahətçi gəlib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 72 min və ya 8% çoxdur. Ən yüksək artım Hindistan, Çin və Səudiyyə Ərəbistanından qeydə alınıb.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-sentyabr ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin sentyabr ayında və 2019-cu ilin yanvar-sentyabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | sentyabr | yanvar-sentyabr | sentyabr | yanvar-sentyabr |
| Rusiya | 70 907 | 724 730 | 65 633 | 688 163 |
| Gürcüstan | 58 440 | 530 873 | 51 703 | 436 361 |
| İran | 33 142 | 197 535 | 16 483 | 202 505 |
| Türkiyə | 29 619 | 233 322 | 26 475 | 220 232 |
| Yaxın Şərq | 27 132 | 291 126 | 25 228 | 311 772 |
| Mərkəzi Asiya | 14 121 | 96 955 | 7 490 | 66 505 |
| Cənubi Asiya | 12 095 | 84 248 | 8 791 | 61 039 |
| Şərqi Avropa | 11 077 | 83 835 | 9 851 | 76 932 |
| Qərbi Avropa | 10 822 | 92 883 | 9 643 | 75 928 |
| Şimal-şərqi Asiya | 5 582 | 33 609 | 4 669 | 23 599 |
| Amerika | 3 357 | 22 863 | 2 905 | 21 079 |
| Cənub-şərqi Asiya | 1 391 | 8 559 | 896 | 6 845 |
| Digər | 1 102 | 7 837 | 1 016 | 6 793 |
| Afrika | 831 | 7 479 | 708 | 6 367 |
| **CƏMİ** | **279 618** | **2 415 854** | **231 491** | **2 204 120** |